**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№**068/319

**Bakı şəhəri** “27” dekabr **2023-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2020-2023-cü illər üzrə rəsmi məlumatlarına əsasən, Rusiya Federasiyasının Altay (Altayskiy) diyarında, Tomsk (Tomsk) vilayətində nodulyar dermatit, Əlcəzair Xalq Demokratik Respublikasının Medea (Médéa), El-Bayad (El-Bayadh), Tebessa (Tébessa), Laquat (Laghouat), Msila (M'sila) əyalətlərində xırdabuynuzlu heyvanların taun, Almaniya Federativ Respublikasının Reynland-Pfalts (Rheinland-Pfalz), Saarland (Saarland) vilayətlərində blutanq, Rusiya Federasiyasının Smolensk (Smolensk), Kaluqa (Kaluzhsk) vilayətlərində xırdabuynuzlu heyvanların çiçək, İsrail Dövlətinin Şimal (HaZafon), Mərkəz (HaMerkaz), Qüds (Jerusalem), Hayfa (Haifa), Cənub (HaDarom) dairələrində, Monqolustanın Xentiy (Khentii), Dornoqov (Dornogovi), Süxbaatar (Sühbaatar), Xovd (Khovd), Dornod (Dornod), Övörxanqay (Övörhangay), Dundqovi (Dundgovi), Töv (Töv), Bayanhonqor (Bayanhongor), Qovi-Altay (Govi-Altay), Zavxan (Zavhan), Hovd (Hovd), Selenqe (Selenge), Hentiy (Hentiy), Bulqan (Bulgan), Arxanqay (Arhangay), Xövsgöl (Hövsgöl), Uvs (Uvs), Bayan-Ölqiy (Bayan-Ölgiy), Darhan-Uul (Darhan-Uul), Ömnöqovi (Ömnögovi) vilayətlərində, Əlcəzair Xalq Demokratik Respublikasının Qelma (Guelma), Becaya (Béjaïa), Skikda (Skikda), El Tarf (El Tarf), Umm-El-Buaqi (Oum-El-Bouaghi), Tipaza (Tipaza), Medea (Médéa), Tebessa (Tébessa), Tizi-Uzu (Tizi-Ouzou), Suk-Əhras (Souk Ahras), El-Bayad (El Bayadh) əyalətlərində dabaq, İsrail Dövlətinin Mərkəz (HaMerkaz) dairəsində, İrlandiya Respublikasının Monaxan (Monaghan) inzibati ərazi vahidində, Estoniya Respublikasının Lyaene-Virumaa (Laane-Viru), Haryumaa (Harju), Tartumaa (Tartu) inzibati ərazi vahidlərində, Əlcəzair Xalq Demokratik Respublikasının Medea (Médéa) əyalətində, Moldova Respublikasının Teleneşti (Teleneşti) rayonunda, Amerika Birləşmiş Ştatlarının Yuta (Utah) ştatında isə qeydə alınmış yüksək patogen quş qripi xəstəliyi aradan qaldırılıb.

Belə ki, aradan qaldırılmış xəstəliklər üzrə, ÜHST-nin “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi”nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə”nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatı və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, sözügedən xəstəliklərin baş verməsinə görə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1. Nodulyar dermatit xəstəliyi üzrə:**

**1.1.1.** 2020-ci il 10 avqust tarixli 55 nömrəli qərarla Rusiya Federasiyasının Altay diyarına tətbiq edilmiş məhdudiyyət;

**1.1.2.** 2020-ci il 29 sentyabr tarixli 63 nömrəli qərarla Rusiya Federasiyasının Tomsk vilayətinə tətbiq edilmiş məhdudiyyət.

**1.2. Xırdabuynuzlu heyvanların taun xəstəliyi üzrə:**

**1.2.1.** 2022-ci il 28 iyul tarixli 043/218 nömrəli qərarla Əlcəzair Xalq Demokratik Respublikasının Medea, El-Bayad, Tebessa, Laquat əyalətlərinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.2.** 2022-ci il 23 avqust tarixli 047/222 nömrəli qərarla Əlcəzair Xalq Demokratik Respublikasının Msila əyalətinə tətbiq edilmiş məhdudiyyət.

**1.3. Blutanq xəstəliyi üzrə:**

**1.3.1.** 2020-ci il 16 oktyabr tarixli 68 nömrəli qərarla Almaniya Federativ Respublikasının Reynland-Pfalts, Saarland vilayətlərinə tətbiq edilmiş məhdudiyyət.

**1.4. Xırdabuynuzlu heyvanların çiçək xəstəliyi üzrə:**

**1.4.1.** 2020-ci il 8 sentyabr tarixli 60 nömrəli qərarla Rusiya Federasiyasının Smolensk vilayətinə tətbiq edilmiş məhdudiyyət;

**1.4.2.** 2020-ci il 29 sentyabr tarixli 63 nömrəli qərarla Rusiya Federasiyasının Kaluqa vilayətinə tətbiq edilmiş məhdudiyyət.

**1.5. Dabaq xəstəliyi üzrə:**

**1.5.1.** 2021-ci il 19 avqust tarixli 025/120 nömrəli qərarla İsrail Dövlətinin Şimal dairəsinə tətbiq edilmiş məhdudiyyət;

**1.5.2.** 2021-ci il 12 iyul tarixli 041/136 nömrəli qərarla Monqolustanın Xentiy, Dornoqov, Süxbaatar vilayətlərinə tətbiq edilmiş məhdudiyyət;

**1.5.3.** 2021-ci il 22 iyul tarixli 044/139 nömrəli qərarla Monqolustanın Xovd vilayətinə tətbiq edilmiş məhdudiyyət;

**1.5.4.** 2021-ci il 8 sentyabr tarixli 050/145 nömrəli qərarla Monqolustanın Dornod vilayətinə tətbiq edilmiş məhdudiyyət;

**1.5.5.** 2021-ci il 9 sentyabr tarixli 051/146 nömrəli qərarla Monqolustanın Övörxanqay, Dundqovi, Töv vilayətlərinə tətbiq edilmiş məhdudiyyət;

**1.5.6.** 2022-ci il 11 fevral tarixli 011/186 nömrəli qərarla İsrail Dövlətinin Mərkəz dairəsinə tətbiq edilmiş məhdudiyyət;

**1.5.7.** 2022-ci il 18 mart tarixli 020/195 nömrəli qərarla İsrail Dövlətinin Qüds, Hayfa, Cənub dairələrinə tətbiq edilmiş məhdudiyyət;

**1.5.8.** 2022-ci il 1 aprel tarixli 022/197 nömrəli qərarla Monqolustanın Bayanhonqor, Qovi-Altay, Zavxan, Hovd, Selenqe, Hentiy, Bulqan, Arxanqay, Xövsgöl, Uvs, Bayan-Ölqiy, Darhan-Uul vilayətlərinə tətbiq edilmiş məhdudiyyət;

**1.5.9.** 2022-ci il 29 aprel tarixli 030/205 nömrəli qərarla Əlcəzair Xalq Demokratik Respublikasının Qelma, Becaya əyalətlərinə tətbiq edilmiş məhdudiyyət;

**1.5.10.** 2022-ci il 25 may tarixli 034/209 nömrəli qərarla Monqolustanın Ömnöqovi vilayətinə tətbiq edilmiş məhdudiyyət;

**1.5.11.** 2022-ci il 2 iyun tarixli 035/210 nömrəli qərarla Əlcəzair Xalq Demokratik Respublikasının Skikda, El Tarf əyalətlərinə tətbiq edilmiş məhdudiyyət;

**1.5.12.** 2022-ci il 28 iyul tarixli 043/218 nömrəli qərarla Əlcəzair Xalq Demokratik Respublikasının Umm-El-Buaqi, Tipaza, Medea, Tebessa, Tizi-Uzu əyalətlərinə tətbiq edilmiş məhdudiyyət;

**1.5.13.** 2022-ci il 23 avqust tarixli 047/222 nömrəli qərarla Əlcəzair Xalq Demokratik Respublikasının Suk-Əhras, El-Bayad əyalətlərinə tətbiq edilmiş məhdudiyyət.

**1.6. Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

**1.6.1.** 2021-ci il 25 fevral tarixli 019/114 nömrəli qərarla Estoniya Respublikasının Lyaene-Virumaa inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.6.2.** 2021-ci il 7 aprel tarixli 021/116 nömrəli qərarla Estoniya Respublikasının Haryumaa inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.6.3.** 2021-ci il 26 oktyabr tarixli 062/157 nömrəli qərarla Estoniya Respublikasının Tartumaa inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.6.4.** 2021-ci il 23 noyabr tarixli 070/165 nömrəli qərarla İrlandiya Respublikasının Monaxan inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.6.5.** 2021-ci il 29 dekabr tarixli 079/174 nömrəli qərarla İsrail Dövlətinin Mərkəz dairəsinə tətbiq edilmiş məhdudiyyət;

**1.6.6.** 2022-ci il 26 yanvar tarixli 006/181 nömrəli qərarla Moldova Respublikasının Teleneşti rayonuna tətbiq edilmiş məhdudiyyət;

**1.6.7.** 2022-ci il 11 oktyabr tarixli 057/232 nömrəli qərarla Əlcəzair Xalq Demokratik Respublikasının Medea əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.6.8.** 2023-cü il 17 oktyabr tarixli 045/296 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Yuta ştatına tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi • Food Safety Agency of the Republic of Azerbaijan
Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer